Astrid Lindqren

# Lönneberqalı Emil

ASTRİD LİNDQREN

# Lönneberqalı Emil



First published by Rabèn & Sjögren Bokförlag, Sweden, in 1963.
All foreign rights are handled by Saltkråkan AB, Sweden
e-mail:info@saltkråkan,se, while illustrations are
handled by Bildmakarna Berg AB, Sweden
e-mail:maja@bildmakarnaberg.se

For information about Astrid Lindgrens books:
www.astridlindgren.com and www.bildmakarnaberg.se

© Text: Astrid Lindgren 1963 /Saltkråkan AB
© Illustrations Björn Berg 1963, Bildmakarna Berg AB

**Astrid Lindgren Emil i Lönneberga**
**Astrid Lindqren Lönneberqalı Emil**
Bakı, "Əli və Nino" Nəşriyyatı, 2022, 96 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq

Tərcümə: Afaq Mustafa
Korrektor: Ceyran Abbasova
Rəssam: Björn Berg
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

"Əli və Nino" Nəşriyyatı
Bakı, AZ 1005, Z.Tağıyev küç., 19
Tel.: (+994 12) 493 04 12
(+994 12) 493 93 68
e-mail: info@alinino.az
www.alinino.

ISBN 978-9952-38-366-9

© Astrid Lindgren, 1945
© "Əli və Nino" Nəşriyyatı, 2022

Lönneberqalı Emil – Lönneberqa kəndində yaşayan oğlanlardan birini camaat belə çağırırdı. O, yaman dəcəl və tərs idi, sənin kimi deyildi, düzdürmü? Halbuki ilk görünüşdə, xüsusən yatanda, adama elə gəlirdi ki, sakit, sözəbaxan oğlandı.

Onu sənə təsvir etməyimi istəyirsənmi? Aydın mavi gözləri, dəyirmi sifəti, qırmızı yanaqları və bir çəngə samanı sarı saçları vardı – baxanda deyərsən, lap mələkdir! Amma yəqin başa düşmüsən ki, belə düşünmək böyük səhv olardı.

Beş yaşında o, dana kimi iri, möhkəm uşaq idi. Dediyim kimi, o, Lönneberqa kəndində, daha doğrusu, kəndin özündə deyil, Smoland ətrafında yerləşən Katxult adlı xutorda yaşayırdı. Elə danı-

şığı da smolandsayağı idi, amma təbii ki, bu onun günahı deyildi. Axı Smolanddakılar paytaxtdakılar kimi danışmırdı. Bax məsələn, Emil sənin və ya bir başqasının dediyi kimi: “Papağımı mənə ver!” demək əvəzinə, “Papaqcam hanı?” deyirdi. Balaca dimdikli mahud papağı vardı, atası onu şəhərdən alıb gətirmişdi. Papağı görəndə necə sevinmişdi! Hətta yatmağa uzananda da deyirdi: “Papaqcam hanı?” Əlbəttə, mahud papaqla yatması anasının xoşuna gəlməmişdi, odur ki, papağı Emildən gizləmişdi. Di gəl ki, oğlan elə çığırbağır salmışdı ki, səsi az qala Lönneberqanın o biri başından gəlirdi: “Papaqcam hanı?”

Düz üç həftə Emil papağı başından gecə də, gündüz də çıxartmadı. Təsəvvür edirsən də, papaq nə kökə düşmüşdü?! Amma nə olsun, bunun



müqabilində dediyinə nail olmuşdu – istədiyini etmişdi – bu isə, ona hər şeydən vacib idi.



Bir dəfə Yeni ilə yaxın anası qərar verdi ki, ona bir boşqab lobyalı xörək yeməyə məcbur etsin, çünki lobya çox faydalıdır, həm də bu xörəyə çoxlu göyərti tökülür. Amma Emil qəti imtina etdi:

– Yeməyəcəm!

– Nədir, yoxsa ümumiyyətlə, göyərti yemək fikrində deyilsən?

– Niyə ki? Buyur, istəyirsən lap indi yeyim, amma əsl göyərtini, bu həftəbecəri yox.

Və o, küknardan tikanlı budağı qırıb çeynəməyə başladı, düzdü, bu çox çəkmədi, çünki iynəyarpaqlar dilini incidirdi.

İndi başa düşürsən bu Emil necə tərs oğlan idi? Hamıya ağalıq etmək istəyirdi – anasına, atasına, Katxult xutoruna, hətta bütün Lönneberqa! Amma nədənsə lönenberqlilər bunu heç istəmirdilər.

– Katxult xutorunda yaşayan yazıq Svenssonlar! – Onlar acı-acı söyləyirdilər. – Onların övladı oğul deyil e, lap bəladı! Gör hələ böyüyəndə bu uşaq nə olacaq!



Gicbəsər lönenberqlilər! Bircə biləydilər Emil böyüyəndə kim olacaq! Onda belə deməzdilər. Axı Emil böyüyəndə, nə az, nə çox, düz kənd icra nümayəndəsi olacaqdı. Əgər kənd icra nümayəndəsinin nə olduğunu bilmirsənsə, sənə söyləyim: o bu yerlərdə ən hörmətli adamdır. Və Emil buna nail oldu. Bax belə!





Amma bu sonra olacaqdı, hələliksə Emil balacaydı və valideynləriylə birgə Smoland ətrafında Lönneberqa kəndinə yaxın yerləşmiş Katxult xutorunda yaşayırdı.

Atasının adı Anton Svenson, anasını isə Alma Svenson idi. İda adlı balaca bacısı da vardı. Svensonlardan başqa, xutorda Alfred və Lina adlı işçilər yaşayırdı.

Hə, o vaxtlar xutorda ev işlərinə kömək edən adamlar yaşayırdılar. İşçi kişilər yer qazır, atlara, inəklərə qulluq edir, ot biçir, saman daşıyır, kartof əkib və toplayır, işçi qadınlar isə inək sağır, qab yuyur, qazan və tavaları parlayana kimi sürtür, uşaqlara dayəlik edir, onlar üçün mahnı oxuyurdular.

Bax indi sən Smoland ətrafındakı Lönneberqa kəndi yaxınlığında yerləşən Katxult xutorunun sakinlərinin hamısını tanıdın. Gəl onları səninlə birlikdə sadalayaq: Anton – ata, Alma – ana, İda



– bacı, işçi Alfred və Lina, bundan əlavə, iki at, bir neçə öküz, səkkiz inək, üç donuz, on baş qoyun, on beş toyuq, bir xoruz, bir it və bir pişik. Bir də ki Emilin özü.

Katxult çox qəşəng xutordur. Qırmızı rəngə boyanmış ev təpənin üstündə alma ağacları və yasəmən kollarının arasında ucalırdı, ətrafında tarla, çəmənlik, otlaqlar sərilmişdi, uzaqdan isə göl və meşə görünürdü. Katxultda necə gözəl və sakit yaşanılardı, bircə Emil olmaya!

– Nadincə bax a! – Lina heyifsilənərək dedi. – Onun əlindən ağzımızın dadı qaçıb! Özü dəcəllik etməyəndə də mütləq başına bir iş gəlir. Hələ ömrümdə beləsini görməmişəm!

Amma anası həmişə Emilə qahmar çıxardı:

– Oğlandan belə giley-güzar eləməli nə var axı! Dəhşətli bir şey olmayıb ki! Bu gün bircə dəfə İdanı çimdikləyib, bir də qaymağı dağıdıb, vəssalam! Nə olsun ki?! Düzdü, bir də pişiyi toyuq hininin dövrəsində qovalayıb... Amma o, yaxşı uşaqdır, Lina.

Həqiqətən də Emil zalım uşaq deyildi. Bunu onun haqqında söyləmək olmazdı! O, İdanı da, pi-